# MİLLİ AVİASİYA AKADEMİYASINDA TÜRKİYƏ KONSTİTUSİYA MƏHKƏMƏSİNİN HAKİMİ İLƏ GÖRÜŞ KEÇİRİLDİ



13 noyabr 2025-ci ildə Milli Aviasiya Akademiyasının və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin birgə təşkilatçılığı ilə türk vəkil, siyasətçi, Türkiyə Cümhuriyyəti Ədalət nazirinin keçmiş müavini, 26-cı çağırış Türkiyə Böyük Millət Məclisinin millət vəkili, hazırda Türkiyə Konstitusiya Məhkəməsinin hakimi vəzifəsində çalışan Yıldız Seferinoğlu, Ankara Universitetinin professoru Cavid Abdullazadə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Vətəndaşların qəbulu və şikayətlər şöbəsinin müdiri Rüstəm Səlimovun iştirakı ilə "Konstitusiya və Suverenlik ili" çərçivəsində akademiya rəhbərliyi, müəllimlər və tələbələrlə görüş keçirilmişdir. Tədbir Ulu Öndərimiz Heydər Əliyevin və suverənliyimiz uğrunda canından keçmiş Şəhidlərimizin xatirəsinə bir dəqiqəlik sükutla açıq elan edilmişdir.





Milli Aviasiya Akademiyasının "İqtisadiyyat və hüquq" fakültəsinin dekanı, professor Ayxan Rüstəmzadə tədbir iştirakçılarına akademiyanın rektoru, akademik Arif Paşayevin salamlarını çatdırdı. Ayxan müəllim qardaş ölkədən gəlmiş qonağı ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasının Konstitusiyasının qəbulu, sonrakı illərdə aparılmış əlavə və dəyişikliklər, suverenliyimizin bərpası və Prezident İlham Əliyevin siyasi iradəsi nəticəsində hüquqi dövlət quruculuğunun inkişafı barədə məlumatlandırmış, eyni zamanda tədbir iştirakçılarına Türkiyədə 100 ildən artıq bir müddət ərzində gedən hüquqi dövlət və konstitusiya quruculuğunun inkişafı prosesi, bu yolda keçilən çətin sınaqlar, eyni zamanda qardaş ölkədə mövcud Konstitusiya və onun aliliyini təmin edən Konstitusiya Məhkəməsi, onun strukturu, fəaliyyəti və səlahiyyətləri haqqında qısa məlumat verdi. Türkiyə Cümhuriyyəti Konstitusiya Məhkəməsinin hakimi Yıldız Seferinoğlu öncə tədbir iştirakçılarını salamlayaraq Milli Aviasiya Akademiyasında keçirilən bu tədbirdə olmağından məmnuniyyətini dilə gətirdi. Yıldız Seferinoğlu Ayxan müəllimin çıxışını öz fikirləri ilə davam etdirərək Türkiyədəki hüquqi dövlət sistemi barədə müfəssəl məlumat verdi. Türkiyədə qanunverici hakimiyyətin, eləcə də qanunçuluğu təmin edən məhkəmə hakimiyyətinin fəaliyyət prinsiplərindən danışdı. Konstitusiyanın dövlətin əsas qanunu kimi funksiyalarını, suverenlik anlayışının xüsusilə də, Türkiyədə tarixi təkamül prosesini, müasir hüquq sistemində insan hüquqlarının qorunması kimi məsələləri tədbir iştirakçılarının diqqətinə çatdırdı. Ankara Universitetinin professoru Cavid Abdullazadə Türkiyədəki iş təcrübəsinə əsasən Azərbaycan və Türkiyə Konstitusiyasının, hüquq və dövlət quruculuğunun xüsusiyyətləri, oxşar və fərqli cəhətləri haqqında çıxış etdi. Sonra Yıldız Seferinoğlu və Cavid Abdullazadə akademiya tələbələrinin suallarına cavab verdilər. Cavablarında qonaqlar Türkiyədə hüquqi dövlət proseslərinin keçmişindən və gələcək perspektivlərindən danışdılar, həmçinin gələcək hüquqşünaslara öz dəyərli məsləhətlərini verdilər.



Mən də hüquqşünaslıq ixtisası üzrə təhsil aldığım Milli Aviasiya Akademiyasında keçirilən bu mötəbər tədbirdə tələbə yoldaşlarımla birgə iştirak etdim və tədbir başdan-sona mənə çox unudulmaz və xoş təsir bağışladı. Yıldız bəyə Türkiyə Konstitusiyasının gələcəyi və yeni Konstitusiyanın yaranma ehtimalı barədə sual verdim və o da eynilə öz mülahizələrini tədbir iştirakçılarına çatdırdı. Yıldız bəy gənc tələbələrə əsl təcrübə sahibi bir müəllim kimi cavab verərək öz gənclik xatirələrindən misallar çəkirdi. O, hüquq sahəsinə yönəlməsində bu sahəyə məhəbbətinin böyük rolu olduğunu söyləyir, biz gənc tələbələrə bu sahəyə könüldən bağlanmağı və gələcəkdə sanballı hüquqşünas ola bilmək üçün dərslərə ciddi hazırlaşmağı tövsiyə etdi. Təşəkkürlərini bildirərək tələbələrə təhsillərində və fəaliyyətində uğurlar arzuladı. Sonda xatirə fotoşəkli çəkdirildi.

Tədbir gələcək tələbəlik illərimizdə bizə çox gərəkli olacaq hüquq və dövlətlə bağlı biliklərimizin artırılıb dərinləşdirilməsində, maariflənməyimizdə, hüquqi düşüncə və dünyagörüşümüzün formalaşmasında xüsusi rol oynadı. Tələbəsi olduğum bu mötəbər elm ocağında bu cür önəmli görüşlərin, tədbirlərin keçirilməsi və bu tədbirlərdə iştirak etmək mənim üçün çox sevindiricidir. İnanıram ki, bu tədbir də tələbəlik illərimin xoş xatirələrindən biri kimi axırıncı yox, axarıncı tədbir olacaq.



***SEVİNDİK NƏSİBOĞLU***
*Milli Aviasiya Akademiyasının tələbəsi,*
*şair-publisist,*
*AJB və AYB üzvü*
*25.11.2025*